# **TOPÇUBAŞOV**
# MƏHKƏMƏ MÜSABİQƏSİ

# 2015-2016
# SEÇİM RAUNDU QAYDALARI

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ

**TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ**

TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Vebsayt: **moot.bsulawss.org**

E-poçt: moot@bsulawss.org

Topçubaşov Məhkəmə Müsabiqəsi (bundan sonra **Müsabiqə**; müsabiqənin ingiliscə rəsmi adı: Topchubashov Moot Court Competition) Əlimərdan bəy Topçubaşovun (1862 – 1934) xatirəsinə həsr olunmuş, Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyəti (TEC) İdarə Heyəti üzvlərindən təşkil olunan Koordinatorlar tərəfindən idarə edilən 3 Raunddan ibarət müsabiqədir. TEC Azərbaycanda milli hüquqa və sırf hüquqi arqumentə əsaslanan ilk belə bir müsabiqəni keçirməkdən qürur duyur.

Birinci Raund – Seçim Raundu – bu müddəalarla tənzimlənir. Seçim Raundu 2 Mərhələdən ibarətdir. Birinci Mərhələdə iştirak edən bütün komandalar bu müddəalara uyğun olaraq "iddiaçı brifi"[1] təqdim etməlidirlər. İkinci Mərhələdə iddiaçı briflərinin qiymətləndirilməsinə görə ən yaxşı nəticə göstərmiş 8 komanda iştirak edə biləcək. Buradakı təməl prinsiplər müsabiqənin sonrakı mərhələlərində də tətbiq olunacaq.

Qaydalar Harvard Hüquq Məktəbində (*Board of Student Advisers tərəfindən*) təşkil edilən Ames Məhkəmə Müsabiqəsinin qaydaları əsasında hazırlanmışdır.

Seçim Mərhələsi ilə bağlı suallar rəsmi Müsabiqə Koordinasiyası emailinə yönləndirilməlidir: moot@bsulawss.org

# I. ÜMUMİ MÜDDƏALAR

## A. Komandalar

1. Uyğunluq. Müsabiqədə üzvləri 2, 3, 4-cü kurs bakalavr, magistr və doktorantura təhsili alan hüquq tələbələri olan komandalar iştirak edə bilər.

2. Qeydiyyat. Bütün komandalar müvafiq vebsaytda – www.moot.bsulawss.org – qeydiyyatdan keçməlidir.

3. Komanda nömrəsi. Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına müvafiq olaraq nömrələnəcək. Daha sonra komanda göstəricisi kimi bu nömrə istifadə olunacaq.

4. Say. Seçim Raundunda iştirak edən hər bir komanda qeydiyyat zamanı 4 üzv müəyyənləşdirməlidir. Əgər üzvlərdən biri komandanı tərk edərsə, həmin yerin əvəzləşdirilməsi **I. A. 6** bölməsində göstərilmiş qaydalara uyğun həyata keçirilir. Seçim Raundundan imtina və komanda üzvlərinin əvəzləşdirilməsinin son tarixi Seçim Raundu Cədvəlində qeyd olunur.

5. Kapitanlar. Hər bir komanda üzvlərindən birini komanda kapitanı təyin etməlidir. Kapitan Koordinatorlara işlək mobil nömrə və email adresi verməlidir.

6. Komanda və ya komanda üzvlərinin Müsabiqədən imtinası və komanda üzvünün dəyişdirilməsi. Seçim Raundu Cədvəlində komandanın Müsabiqədən imtinası və ya komanda üzvünün dəyişdirilməsi barəsində məlumatın verilməsinin son tarixi (**imtina/dəyişdirilmə son tarixi**) müəyyənləşdirilir. Əgər üzv imtina/dəyişdirilmə son

[1] Brif – komandanın müsabiqə işi üzrə əsaslandırması, iddia ərizəsinin ekvivalenti

tarixindən əvvəl komandanı tərk edirsə, üzvün dəyişdirilməsi barədə məlumat Koordinatorlara imtina/dəyişdirilmə son tarixindən əvvəl verildiyi təqdirdə dəyişdirilmə həyata keçirilə bilər. Bütün komanda Müsabiqədən yalnız özlərinin çıxması barədə məlumatı Koordinatorlara imtina/dəyişdirilmə son tarixindən öncə verərsə Müsabiqəni tərk edə bilər. İmtina/dəyişdirilmə son tarixinə kimi 4 nəfərdən az üzvü olan komanda Müsabiqədən xaric edilmiş sayılır.

7. Şifahi çəkişmədə iştirak etməmə. Bu müddəalar Seçim Raundunun İkinci Mərhələsinə keçmiş komandalara aiddir. Bu Müsabiqə ciddi elmi müsabiqədir. Əgər üzvlərdən hansısa biri cədvələ uyğun şifahi çəkişmədə iştirak etməzsə, Yarım-final və Finalda iştirakdan məhrum olur. Lakin həmin komanda hələ də digər şifahi çəkişmələrdə iştirak etməlidir.

8.Vicdanlılıq prinsipi (xoş niyyətlilik). Hər bir iştirakçıdan briflərin hazırlanmasında və şifahi çəkişmədə iştirak zamanı vicdanlılıq prinsipinə əməl etmələri tələb olunur. Bu prinsipə əməl olunmadığı aşkarlanarsa qiymətləndirmədə bu pozuntu nəzərə alınır.

## B. Komandaların iştirakı

1. Cütlüklər. Hər bir komanda iki cütə ayrılan 4 nəfər üzvdən ibarət olur. Həmin cütlərdən biri iddiaçı digəri isə cavabdeh qismində təyin edilir.

2. İştirak məsuliyyəti.

*i.* Hər bir komanda Seçim Raundunun birinci Mərhələsi üçün “iddiaçi brifi” yazmalıdır.

İddiaçı brifinin qiymətləndirilməsindən ən yaxşı nəticə göstərən səkkiz komanda:

*ii.* iki müxtəlif komanda ilə şifahi çəkişmədə iştirak edəcək.

*iii.* həmin komandaların iddiaçı cütü başqa bir komandanın cavabdeh cütü ilə, cavabdeh cütü isə digər bir komandanın iddiaçı cütü ilə şifahi çəkişmədə iştirak edəcək. Bu isə o deməkdir ki, hər İkinci Mərhələyə keçən komanda qarşılaşacağı iddiaçı komandanın brifi üçün **cavabdeh brifi** yazacaq.

## C. Xaricdən dəstək və araşdırma.

1. Xaricdən dəstək. Seçim Raundu komanda işidir. Heç bir komanda üzvü Seçim Raundunun hər hansı bir hissəsi ilə bağlı onun komandasında olmayan hər hansı bir şəxslə məsləhətləşə, kömək ala, təklif qəbul edə bilməz. Bu qaydanı pozan istənilən komanda Müsabiqədən uzaqlaşdırılacaq və komandanın hər bir üzvünün akademik ləyaqətsizliyi barədə müvafiq rəhbərliyə məlumat veriləcəkdir.

2. Oxşar materiallar. Komandalar Müsabiqə vebsaytında qeyd olunan nümunə materialları istisna olmaqla, heç bir əvvəlki müsabiqə üçün nəzərdə tutulmuş brifləri oxuya, məsləhətləşə, yaxud onlardan istifadə edə bilməzlər. Komandalar həmçinin real praktika üçün nəzərdə tutulmuş briflərdən çıxışlarında və ya təqdimatlarında təqdim olunan fakt və məlumatlarla oxşarlıq, yaxud eyniyyət təşkil edən məhkəmə müsabiqəsinə və ya real praktikaya aid şifahi çəkişmələri oxuya, məsləhətləşə, yaxud

onlardan istifadə edə bilməzlər. Əlavə olaraq, komandalar əvvəlki müsabiqələrdə iştirak etmiş şəxslərlə məsləhətləşə bilməz və ya onlardan yardım istəyə bilməzlər.

3. Araşdırma. Kitabxanalarda mövcud olan materiallardan istifadə etmək olar. *HeinOnline*, *LEXIS*, *Westlaw* və digər etibarlı elmi internet resurslarından istifadəyə də icazə verilir. İnternetdən istifadə zamanı TEC-in nəşri olan BDU Tələbə Hüquq Jurnalının yazı ilə bağlı Texniki tələblərində internet resurslarına istinad qaydalarına diqqət etmək lazımdır: http://lr.bsulawss.org/submission/policy

4. Qadağan olunmuş material. Komanda üzvləri bilavasitə müsabiqə işi ilə bağlı olan qadağan olunmuş materialdan istifadə edə bilməzlər. Bu tip materiallardan istifadəylə bağlı suallar Koordinatorlara ünvanlanmalıdır.

## D. Tələbə Elmi Cəmiyyətinin (TEC) rolu

1. TEC. TEC fakültədə akademik fəaliyyətləri həyata keçirən təşkilatdır. O, Topçubaşov Məhkəmə Müsabiqəsinin təşkilatçısı və idarəçisi kimi xidmət edir. Koordinatorlar TEC-dən seçilirlər. Koordinator olan TEC İdarə Heyəti üzvləri müsabiqə iştirakçısı ola bilməzlər. Bu Müsabiqə ilə birgə TEC Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı (http://lr.bsulawss.org); Hüquq Müzakirə Forumu; Hüquqi Araşdırma Yardımçısı Layihəsi layihələrini də həyata keçirir.

2. Mübahisələr. Seçim Raundu Qaydaları ilə bağlı mübahisələrin həllini koordinatorlar müəyyən edir. Koordinatorlar komanda fərdləri arasında mübahisələri həll edə, yaxud vasitəçilik edə bilməzlər. Heç bir koordinator Seçim Raundunun Qaydalarıyla bağlı mübahisələr istisna olmaqla, digər mübahisələrin həllində və ya komandalar arasında vasitəçilik etməyəcək.

# II. BRİFLƏR

## A. Format

1. İçindəkilər. Briflərə daxildir:
   *i*) üz qabığı,
   *ii*) mündəricat,
   *ii*) brifdə istifadə olunmuş mənbələr,
   *iii*) giriş,
   *iv*) müsabiqə işindən istifadə edəcəyiniz faktlar,
   *v*) hüquqi arqumentlər,
   *vi*) ümumiləşdirilmiş icmal,
   *vii*) məhkəməyə müraciət.

Müsabiqə işində hər hansı qanun və ya konstitusiya müddəasının təfsirinin tətbiqi yer aldıqda hər komanda öz brifində müvafiq müddəanı yenidən göstərməlidir.

2. Üz qabığı. Üz qabığı aşağıdakı məlumatlardan ibarət olur:
   1. məhkəmə adı (*Topçubaşov Rayon Məhkəməsi*);
   2. tərəflərin təyinatı (iddiaçı/cavabdeh) ilə birgə adları;

3. komanda nömrəsi (ardı ilə komandanın iddaçı və ya cavabdeh olmasını təyin etmək üçün müvafiq olaraq **İ** və ya **C**).
4. Brifin verilmə tarixi.
Üz qabığı nümuməsini bu *keçiddən* yükləyə bilərsiniz.

İddiaçı brifi üçün üz qabığında komanda üzvlərinin adlarınadan istifadə oluna bilməz. Seçim mərhələsinin sonrakı hissəsinə keçənlər üz qabığına yuxarıdakılarla birlikdə

5) şifahi çəkişmənin vaxtı və yeri;
6) brifin iddiaçı və ya cavabdeh brifi olmasını göstərmək üçün yuxarı hissədə müvafiq olaraq mavi və ya qırmızı rəngli 1 sm. qalınlığında xətt olmalıdır.

3. Uzunluq. Hər brif üz qabığı, mündəricat, mənbələrin siyahısı da daxil edilməklə maksimum 4500 söz ola bilər.

4. İstinadlar. İstinadlar BDU Tələbə Hüquq Jurnalının istinadlarla bağlı tələblərinə uyğun olmalıdır: http://lr.bsulawss.org/submission/policy

## B. Göndərmə

1. Tarix. Bütün briflər Seçim Raundu Cədvəlində göstərilən tarixə kimi təqdim olunmalıdır.

3. CDdvDlD uyğun son tarixə qədər hər brifin Koordinatorlara bütöv, Microsoft Word formatlı elektron nüsxəsini göndərməlidir. Hər nüsxənin adı komanda nömrəsindən (1) və brifin **iddiaçı** və ya **cavabdehə** aid olmasını göstərmək üçün müvafiq olaraq "**İ**" və ya "**C**" hərflərindən (2) ibarət olur. Koordinatorlar elektron versiyanı, başqa məqsədlərlə birgə, briflərin yuxarıda göstərilən söz sayı limitlərinə uyğunluğunu təsdiq etmək üçün istifadə edir. Koordinatorlar həm də brifləri hakimlərə göndərir. Koordinatorlar əgər göndərilmiş olunmuş nüsxələrdə Qaydalara uyğunsuzluq aşkarlayarsa komandanı müsabiqədən uzaqlaşdıra və ya uyğun gördüyü cəza tədbiri həyata keçirə bilər.

4. Əks tərəflərin brifləri ilə təminat. Seçimlərin 2-ci mərhələsinə keçən komandalar rəqib komandaların bриflərini Seçim Raundu Cədvəlində göstərilmiş vaxta uyğun olaraq əldə edə biləcəklər.

## C. Briflər üzərində sonrakı səlahiyyət

Bütün göndərilən briflər TEC-in səlahiyyətinə keçir. Brifləri TEC öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

## D. Yazı tələbi

BDU Tələbə Hüquq Jurnalı üçün yazı tələbləri burda da tətbiq olunur: http://lr.bsulawss.org/submission/policy

# III. ŞİFAHİ ÇƏKİŞMƏ

## A. Müddət

Hər tərəfin şifahi çəkişmə üçün vaxtı 35 dəqiqə ilə məhdudlaşır. İddiaçı bu vaxtın 5 dəqiqəsini təkzib üçün saxlaya bilər. Bir komanda üzvü bir şifahi çəkişmədə 20 dəqiqədən artıq danışa bilməz.

## B. İstinad

İştirakçı komandaların tərtib etdiyi hər hansı brifdə istinad olunub-olunmamasından asılı olmayaraq şifahi çəkişmədə hər hansı məhkəmə işinə və ya nəşrə istinad edilə bilər. İştirakçı briflər daxilində göstərilməyən şifahi çəkişmədəki istinadlar üçün istinadın sözbəsöz tərtibatını təqdim etməlidir. İştirakçının əlavə brif təqdim etməyə icazəsi yoxdur.

# IV. TƏTBİQ OLUNAN QANUNVERİCİLİK

## A. Tətbiq oluna bilən qanunlar

Azərbaycan Respublikası Qanunvericiliyinə daxil olan bütün aktlar (eləcə də, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr) tətbiq oluna biləndir.

## B. Tətbiq oluna bilən prossesual hüquq

Seçimlər zamanı iş Azərbaycan Respublikasının yurisdiksiyasında olan xəyali ***Topçubaşov Rayon Məhkəməsində*** aparılır. Tətbiq olunan prossesual hüquq da Azərbaycan Respublikasında tətbiq olunan prosessual hüquqdur.

# V. YARIM-FİNAL MƏRHƏLƏSİNƏ KEÇMƏ

## A. Fərdi çəkişmə qiymətləndirməsi

1. İddiaçı brifini qiymətləndirmə. İddiaçının brifinin 0-100 aralıqlı qiymətləndirilməsini Müsabiqə Hakimləri həyata keçirəcək. İddiaçının brifinin qiymətləndirilməsi anonim həyata keçirilir.

2. Cavabdeh brifini qiymətləndirmə. Hər çəkişməyə sədrlik edən hər hakim cavabdeh tərəfin brifinin 0-100 aralıqlı qiymətləndirilməsini həyata keçirəcək.

3. Şifahi müdafiənin qiymətləndirilməsi. Hər bir çəkişməyə sədrlik edən hakim hər iki tərəfin 0-100 aralıqlı qiymətləndirilməsini həyata keçirəcək.

4. Qiymətləndirmə qaydaları. Koordinatorlar məhkəməyə sədrlik edən hakimləri brif və çəkişmələrin qiymətləndirmə qaydaları ilə təmin edir.

## B. Komanda Qiymətləndirməsi

1. Ümumi qiymət. Komandanın ümumi qiyməti komandanı təşkil edən iddiaçı və cavabdeh cütlərin brifləri (2 brif) və şifahi çəkişmələrinin (2 çəkişmə) qiymətlərinin cəmidir. Ən yüksək mümkün ümumi qiymət 400 baldır.

2. Cəza. Cəzalar komandaya qarşı yönələn tədbirdir, cəza verildiyi təqdirdə komandanın ümumi qiymətindən bal çıxılır.

## C. İrəliləyən komandaların seçilməsi

1. Uyğunluq. Yarım-Finalda iştirak etməyə 4 ümumi qiyməti ən yüksək olan komandalar seçilir.

2. Bərabərlik. Bərabərlik halında komandalar aşağıdakı kriteriyalara uyğun şəkildə irəliləyə bilər:

(*i*) Ən yüksək brif qiymətləri çıxarılmaqla, əgər bərabərlik yenə qalarsa...
(*ii*) Fərdi hakimlər tərəfindən komandaya verilən ən yüksək və ən aşağı şifahi çəkişmə balları çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalarsa...
(*iii*) Fərdi hakimlər tərəfindən komandaya verilən ən yüksək və ən aşağı Cavabdeh Brif Qiymətləri çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalarsa...
(iv) Fərdi hakimlər tərəfindən komandaya verilən ən yüksək 2 və ən aşağı 2 şifahi mübahisə balları çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalarsa...
(v) Fərdi hakimlər tərəfindən komandaya verilən ən yüksək 2 və ən aşağı 2 brif balları çıxarılmaqla; bərabərlik pozulana qədər. Əgər bərabərlik bu yolla pozulmazsa, Koordinatorlar bunun üçün öz mülahizələrinə əsasən komandaların bir-birinə qarşı əlavə çəkişməsini təyin edə bilərlər.

## D. Komanda xallarının paylanması

Komanda kapitanları Koordinatorlardan Seçimlərin bal nəticələri hazır ediləndən sonra öz komandalarının brif qiymətlərinin bir nüsxəsini götürə bilərlər. Həmçinin, Koordinatorlar e-poçt vasitəsilə Yarım-final mərhələsinə çıxacaq komandaları məlumatlandıracaqlar.
Heç bir komandaya digər başqa komandaların xalları və ya ümumi komanda sıralaması haqqında məlumat verilməyəcək. Komanda kapitanları komandalarının brif xallarının başqa komandalara yayılmasına görə məsuliyyət daşıyırlar. Şəxsi şifahi çəkişmə xalları haqqında məlumat yalnız həmin şəxsin özü ilə paylaşılacaq, komanda kapitanlarının şəxsi çəkişmə xallarının öz komanda yoldaşları üçün götürməsinə icazə yoxdur.

# VI. Cəzalar

1. Üz qabığı məlumatarı. Hər hansı komandanın üz qabığı məlumatlarını dəqiq təmin etməməsi 5 xalla cəzalandırılır.

2. Briflərin qeyri-məqbul sayda təqdim olunması. Komandalar verdikləri qeyri-məqbul sayda briflər üçün cəzalandırılacaqlar. Komandalar hər bir çatışmayan brif üçün beş (5) xalla cəzalandırılacaqlar.

3. Gecikmiş briflər. Hər hansı bir komanda öz briflərini müəyyən olunmuş Seçim Raundu Cədvəli tarixindən sonra təqdim edərsə, həmin tarixdən sonrakı 30 dəqiqə gecikmə üçün on (10) xalla cəzalandırılır. Hər hansı komanda öz briflərini həmin tarixdən 31-60 dəqiqə sonra təqdim edərsə həmin komanda əlavə 10 xalla cəzalandırılır. Hansısa komanda öz briflərini həmin tarixdən 60 dəqiqə və ya 1 saat keçdikdən sonra təqdim edərsə əlavə 20 xalla, ümumilikdə isə 40 xalla cəzalandırılır. Hansısa komanda öz briflərini 24 saat ərzində təqdim etmirsə Seçimlərdən kənarlaşdırılır.

4. Normadan artıq uzunluq. Komandalar briflərdə II Bölmə A. 3-də gostərilən "söz sayı limiti"nə görə hər birdən əlliyə kimi (1-50) limiti keçdiyi üçün 20 xal cəzalandırılır.

5. Xarici yardım. I Bölmə C-də göstərilən tədqiqat və xarici yardım qaydalarını pozan istənilən komanda kənarlaşdırıla bilər. Sədrlər istənilən belə hadisəni şübhəli komandaya izahat imkanı verdikdən sonra araşdırır. Kənarlaşdırılma əvəzinə, Koordinatorlar öz diskresion səlahiyyətinə görə komandanı "Xarici yardım" qaydalarını pozduğuna görə cəzalandıra bilərlər.

6. Format və istinad səhvləri. Brifdə edilən format və ya istinad səhvləri bifin qiymətləndirilməsi ilə bərabər müvafiq çəkişməyə sədrlik edəcək hakim bu barədə məlumatlandırılacaq.

7. Diskresion cəza. Tənzim olunmamış hər hansı hal baş verərsə Koordinatorlar cəzalandırma ilə bağlı diskresion səlahiyyətə sahibdir.